

**Hədiyyə Şəfaqət**

-1-

...Yadındamı qağayılar?
Dənizin çirkli, ləkəli sularında
yem axtarırdılar
Uçuşurdular qıy çəkərək
Və hər dəfəsində səksənib gülürdüm uşaq kimi
Və deyib dururdum ki, çörək,
Qağayılara çörək gətirməliydim...
...Dənizlər qağayısız
Sevəni olmayan qadın kimidir
Sevəni olmayan qadınlar
Qağayısız dəniz kimi...
Bilmirəm,
Hansı daha kədərlidir?...

-2-

Sular
Göylərin gözündən süzülüb dolur
Çölün ovuclarına
Külək
Sehrli barmaqlarını toxundurur
Ağacların
Budaq-budaq tellərinə
Torpaq
Nəfəsini dərir
Uzuuun bir yuxudan ayılıb
Otlar
Çimir
Xırda-xırda işıldayan gün işığında...
...Mən
Eləcə həyata gülümsəyirəm
Baharın
Bircə addımlığında...
Və,
Bir qızılgül kolu
Anamın məzarı üstündə
Bir dəstə çiçək-
Atamın baş daşına yaxın
Evimiz
Küskün
Kədərini gizlərkən....
Və alma ağacları
Baxçamızda-
Apreli gözlərkən...
...Dostum,
Novruzgüllərinin
Ətri Səsləyib gətirib
Məni yenə buralara...
Yağışlar sevgi-sevgi
Xatirə yağdırır
Bahara...

-3-

Hər ayrılığın sonrası
Özündən ağır səsdir
Özündən ağır qoxudur
Bir dəstə nərgiz çiçəyidir
Oyanasan ki, səhər
O da soluxub...
Sən heç
Ayrıldıqdan sonra
Uzaqlara yollanan adamın nəfəsini
İkəlli axtardınmı?
Sükut
Pəncərənin o üzündən əlini uzatdımı dənizə sarı,
Və
Sən
Gecə qaranlığında
Ay işığında oynayan sularda təsəlli axtardınmı?
Bəzən...
Anladığından dərin sevgilər yaşayır insan
Və heyrət!
Və bəzən
Ayrılıq anındaca
Yol başlayır görüşlərə
Olmayan zaman içində...
Heç bir yerə gedilmədən...
Bilirsən,
Biz
Güzgülərə əksi düşməyən adamlarıq
təklikdə
Və eşidilməyən...
Müqəddəs ruhlar kimi
Gah o,
Gah bu bədəndə var olaraq dolaşırıq...
Amma yoxuq
Əslində...

-4-

Ağac-ağac qanadlanıb çöl
Üfüqə sarı...
Üfüq yoxdur...
Başını qaldırıb göylərə yalvarır-
Qovuşdur-deyir-məni sevdiyimə...
Göylər neyləsin?
Gözlərinin yaşı
Bənövşə-bənövşə damlalanıb
Kiprik-kiprik kolların arasında
Çölün...
Sinəsindən keçib gedən
Qan damarlarıdır cığırlar
Ürəyi hanı bəs?-
-Üfüqün arxasında...
Üfüq... yoxdur...

-5-

Durna çıraqları varmış ha, dostum
Sonuncusunu nə zaman söndürdülər?...
Durna yollarını itirdilər
Durnaları öldürdülər...
...Xoşbəxtlik deyilən şey
Heç də həmişə uzaqda deyil deyil
Bir küçə o üzdə də çırpınarmış qəlbimizin içində
Yağışlar üşüdərmiş adətən
Yağarkən kədərli tənhalığın
Ağaclarına...
Və payız yarpaqları düşməliymiş mövsümündə
Küləklərin əlinə
Ki
Yaz gələrkən
Bozarmış halıyla yaşıllıqlardan utanmasın
Və ağrımasın
Torpağa qarşmamağına...
...Durna çıraqları vardı ha, Dostum...
Yandıra bilmədim
Sənsizliyə...
Bir ümüd...
Sadəcə ümüd...

-6-

...Bu yer
Bu qədər niyə darıxır?
Küçələri kimi gözləmədə,
Niyə səkiləri ayaq səslərini udmada,
Niyə örtülüb qapıları adamlara
Boşluğa açılıb?
Niyə ağacları yaşıllaşmır bu yerin,
Nə olub,
Nəyini itirib,
Kimini qaçırıb
Bu yer...
Tanrılar
Biri gəlib, biri gedib
Atıblarmı bu yeri?
Yağışlar islatdıqca yuyulub gedir xatirələr,
Və bir də evlər söküldükcə...
Bir də qarılar son yuxularını gördükcə...
Son sevgililəri dünən dəfn etmiş kimi yaslıdır,
Günəş susdurulub
Hüzr yerinin qonşuluğundakı musiqi kimi
Və hamı
Qara libaslıdır...
Dizlərini yerə qoyub
"Mən təslim!"-deyirmişcəsizə məğlub görünür
Dar küçələrin
Bir tərəfində
Min illik əl yaddaşını qoruyan hasarlarda
Qorxulu kölgələr sürünür...
Nəfəsini
İçinə çəkib gizlənib dar dalanlarda
Qorxub...
Koruxub bu yer,
Yaman koruxub...

-7-

..Baharın son günlərindən biri
Axşamdan gecəyə gedərkən
Qarşılaşdıq...
Gecikmiş bir görüşdü
Bir neçə saat...
Sən
"Hər şey ən gözəl olacağı zamanda olar"- dedin sonrasında
Və mən inandım bunun ancaq belə ola biləcəyinə...
Mən gözüm qarşıya zillənmiş
Heç nəyi umursamadığım halımla,
Sən baxaraq, gülümsəyərək kənardan mənə
Və olanların gerçəyinə...
Gözləyirmişik,
Mən səni,
Sən mənim səni görməyimi
İki addım sol tərəfimdə...
...Baharın son günlərindən biri
Axşam gecəyə gedərkən...
Gözəl görünürəmmiş, belə dedin,
Dalarkən
Tanrının
Və sənin gələcəyinə...
...Və mən inandım bunun ancaq belə ola biləcəyinə...